Serbiya prezidenti İlham □liyevi t□brik etdi

Yazan
12.10.13 17:01 -



Serbiya prezidenti Tomislav Nikoliç dövlət başçısı İlham Əliyevə təbrik məktubu göndərib.

Təbrik məktubunda deyilir:

”Yenidən Azərbaycan Respublikasının prezidenti seçilməyiniz münasibətilə Serbiya Respublikasının xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi, ölkənizin tərəqqisi və xalqınızın rifahı naminə ən yaxşı arzularımı zati-alinizə çatdırmaqdan məmnunam. Xalqlarımız arasında ənənəvi dostluq, qarşılıqlı dəstək və anlayışa əsaslanan hərtərəfli əlaqələr barədə bu il Bakıda etdiyimiz söhbətlər məndə belə bir əminlik yaradıb ki, bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızı inkişaf etdirmək üçün bu əlaqələrimizi uğurla davam etdirəcəyik. Cənab Prezident, fürsətdən istifadə edərək sizə ali dövləti vəzifənizdə uğurlar və xoşbəxtlik arzulayır, sonsuz ehtiramımı qəbul etməyinizi xahiş edirəm”.